# Olimpiya dünyası

www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 30 (1430), 30 iyul - 5 avqust 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.


## Azərbaycan Respublikasında gənclərlə iş və idman sahəsində çalışan şəxslərin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda gənclərlə iş sahəsində səmərəli fəaliyyətlərinə, bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Rəhimov Azad Arif oğlu

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Babayev İntiqam Vaqif oğlu
İsmayılov İsmayıl Sultan oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Hacıyev Fərhad Məcid oğlu
Həsənov Rüfət Elman oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov Raqif Arif oğlu
Əhmədov Vüqar Fərman oğlu
Muxtarov Ramiz Məcid oğlu
Tağıyeva Gülgəz Əbülfəz qızı

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Bağırov Anar Qurban oğlu
Eyvazov Tofiq Baba oğlu
Nəcəfova Afaq Sabir qızı
Əfəndiyeva - Xəlilova Aysu Elçin qızı
Əliməmmədov Süleyman Xalid oğlu
Gözəlov Azad Mikayıl oğlu
Hüseynov Fikrət Akif oğlu
İbrahimov Taleh Məmməd oğlu
Quliyev Azər Əli oğlu
Quliyev Nadir Tahir oğlu
Quliyev Sənan Səfər oğlu
Nuxbalayev Mustafa Ədalət oğlu
Manafov Camal Zülfüqar oğlu
Məmmədov Nadir Əmrulla oğlu
Məmmədova Mətanət Tahir qızı
Mirzəyev Əliniyaz Nüsrət oğlu
Mühəmmədova Kamila Eldar qızı
Rəcəbova Fidan Mübariz qızı
Səfərov İlham İlyas oğlu
Soltanov Fəxri Elxan oğlu
Surtayeva Larisa Petrovna
Tağıyeva Cəmilə Allahverdi qızı
Vəliyev Gündüz Əli oğlu.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri 24 iyul 2019-cu il.***



## XV Avropa Gənclər Olimpiya Festivalının təntənəli bağlanış mərasimi keçirilib

Dünyada ən mötəbər idman turnirlərinin mahir təşkilatçısı kimi tanınan Azərbaycan daha bir mötəbər beynəlxalq idman tədbirinə - "EYOF Bakı 2019" XV Avropa Gənclər Olimpiya Festivalına yüksək səviyyədə ev sahibliyi edərək növbəti dəfə tarix yazdı. Son 7 gün ərzində dünya, o cümlədən Avropanın idman ictimaiyyətinin gözü Azərbaycanda idi. Bakı bu 7 gündə XV Avropa Gənclər Olimpiya Festivalına layiqincə ev sahibliyi etdi. Burada gördükləri yüksək təşkilatçılıq, xalqımızın səmimi qonaqpərvərliyi, mədəni dəyərləri minlərlə yeniyetmə idmançının, nümayəndə heyətlərinin üzvlərinin, yarışları televiziya ekranlarından izləyən milyonlarla tamaşaçının qəlbini riqqətə gətirdi. Festivalın yarışları, sözün həqiqi mənasında, əsl idman və həmrəylik bayramına çevrildi, maraqlı və parlaq qələbələrlə yadda qaldı. Bu mötəbər yarışda 10 qızıl, 7 gümüş və 6 bürünc medal qazanan Azərbaycan yığma komandası 48 ölkə arasında dördüncü oldu.

*(ardı 2-ci səhifədə)*

## XV Avropa Gənclər Olimpiya Festivalının Əməliyyat Komitəsinin sonuncu mətbuat konfransı təşkil olunub




İyulun 27-də XV Avropa Gənclər Yay Olimpiya Festivalının Əməliyyat Komitəsi sonuncu mətbuat konfransını keçirib. Mətbuat konfransında gənclər və idman naziri Azad Rəhimov, Avropa Olimpiya Komitələrinin vitse-prezidenti Nils Nayqaard və Avropa Olimpiya Komitələri Əlaqələndirmə Komissiyasının rəhbəri Corce Visaçki iştirak ediblər.

Azad Rəhimov bildirib ki, yarışlarda iştirak edən idmançıların və qonaqların rəylərinə əsasən festival uğurla təşkil olunub.

"Biz festival müddətində yeniyetmə atletlərin timsalında əzmkarlığı, mübarizliyi ilə demək olar ki, Olimpiya çempionlarından heç də geri qalmayan peşəkar idmançılar gördük. Ümid edirəm ki, bu festival onları gələcəkdə daha böyük nailiyyətlərə üçün ruhlandıracaq. İnanıram ki, bütün qonaqlar yarışlardan, ölkəmizdən xoş təəssüratlarla ayrılırlar. Mən onların hər birinə təhlükəsiz, sağ-salamat geri dönüş arzulayıram", - deyə Azad Rəhimov bildirib.

Nazir yarışlara tamaşaçıların marağının gözlənildiyindən də böyük olduğunu, həndbol, atletika, üzgüçülük yarışlarına gündəlik sessiyalar üçün nəzərdə tutulan bütün biletlərin satıldığını, güləş, cüdo və gimnastika yarışlarında isə hətta nəzərdə tutulandan əlavə yerlər açmaq lazım gəldiyini deyib.

Yarışların yüksək səviyyədə işıqlandırılmasında media nümayəndələrinin rolunu xüsusi vurğulayan gənclər və idman naziri obyektlərdə hər gün orta hesabla 110-120 jurnalistin çalışdığını məmnunluqla bildirib. Nazir festival çərçivəsində "Olimpiya mədəniyyəti və təhsil", "Yeni liderlərin idman liderliyi" və "Dopinqdən istifadəyə qarşı monitorinq" proqramlarının, eləcə də digər tədbirlərin reallaşdırılmasının əhəmiyyətini xüsusi vurğulayıb.

Mətbuat konfransında iştirak edən Avropa Olimpiya Komitələrinin vitse-prezidenti Nils Nayqaard çıxışında festivalın yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinə minnətdarlığını bildirib. Bu festivalın gənclərin karyerasında özünəməxsus yer tutacağını vurğulayan N.Nayqaard yarışlar çərçivəsində müxtəlif mədəni proqramların da yaxşı təşkil olunduğunu deyib. Qeyd edib ki, "EYOF Bakı 2019" XV Avropa Gənclər Olimpiya Festivalı bütün Avropada gənclərin arasında yeni dostluqlara yol açdı.

Avropa Olimpiya Komitələri Əlaqələndirmə Komissiyasının rəhbəri Corce Visaçki Azərbaycan atletlərinin uğurlu çıxışlarında və mötəbər turnirin yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdırıb. O bildirib ki, bu uğur Azərbaycan idmançılarını daha mötəbər yarışlarda qələbə qazanmağa ruhlandıracaq. O, idmançıların və nümayəndə heyətlərinin üzvlərinin ölkəmizdən xoş təəssüratlarla ayrıldıqlarını diqqətə çatdırıb.

Sonda jurnalistlərin sualları cavablandırılıb.

## Milli Olimpiya Komitəsində "Zəfər günləri" tədbiri keçirilib

İyulun 29-da Milli Olimpiya Komitəsində (MOK) "Zəfər günləri" layihəsi çərçivəsində tədbir keçirilib. MOK-un inzibati binasında təşkil olunan tədbirə XV Avropa Gənclər Olimpiya Festivalında medal qazanan idmançılar və onların ailə üzvləri dəvət olunublar.

Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, təhsil naziri Ceyhun Bayramov, MOK-un vitse-prezidentləri Çingiz Hüseynzadə və Xəzər İsayev, baş katib Ağacan Abiyev, baş katibin müavini Azər Əliyev və digər rəsmilər iştirak ediblər.

*(ardı 3-cü səhifədə)*

### *XV Avropa Gənclər Olimpiya Festivalında medal qazanan ölkələr*

| Ölkə | qızıl | gümüş | bürünc | cəmi |
|---|---|---|---|---|
| 1. Rusiya | 28 | 17 | 21 | 66 |
| 2. B.Britaniya | 11 | 12 | 2 | 25 |
| 3. Türkiyə | 11 | 6 | 10 | 27 |
| **4. Azərbaycan** | **10** | **7** | **6** | **23** |
| 5. İtaliya | 8 | 9 | 9 | 26 |
| 6. Ukrayna | 8 | 7 | 10 | 25 |
| 7. İspaniya | 7 | 4 | 10 | 21 |
| 8. Fransa | 6 | 8 | 14 | 28 |
| 9. Polşa | 6 | 3 | 6 | 15 |
| 10. Belarus | 6 | 2 | 6 | 14 |
| 11. Rumıniya | 4 | 10 | 5 | 19 |
| 12. Almaniya | 4 | 7 | 15 | 26 |
| 13. Xorvatiya | 4 | 1 | 0 | 5 |
| 14. İsveç | 3 | 1 | 2 | 6 |
| 15. Estoniya | 3 | 0 | 2 | 5 |
| 16. Hollandiya | 2 | 3 | 4 | 9 |
| 17. Finlandiya | 2 | 3 | 1 | 6 |
| 18. Çexiya | 2 | 1 | 3 | 6 |
| 19. İrlandiya | 2 | 0 | 2 | 4 |
| 20. Norveç | 1 | 6 | 2 | 9 |
| 21. Gürcüstan | 1 | 5 | 7 | 13 |
| 22. Danimarka | 1 | 1 | 3 | 5 |
| 23. Bolqarıstan | 1 | 1 | 0 | 2 |
| 24. Kipr | 1 | 0 | 2 | 3 |
| 25. İsrail | 1 | 0 | 1 | 2 |
| 26-27. Kosovo | 1 | 0 | 0 | 1 |
| 26-27. Avstriya | 1 | 0 | 0 | 1 |
| 28. Macarıstan | 0 | 9 | 12 | 21 |
| 29. Belçika | 0 | 5 | 2 | 7 |
| 30. İsveçrə | 0 | 2 | 2 | 4 |
| 31. Moldova | 0 | 1 | 4 | 5 |
| 32-33. Yunanıstan | 0 | 1 | 3 | 4 |
| 32-33. Serbiya | 0 | 1 | 3 | 4 |
| 34-35. Portuqaliya | 0 | 1 | 0 | 1 |
| 34-35. Litva | 0 | 1 | 0 | 1 |
| 36-38. Latviya | 0 | 0 | 1 | 1 |
| 36-38. Slovakiya | 0 | 0 | 1 | 1 |
| 36-38. Sloveniya | 0 | 0 | 1 | 1 |

# XV Avropa Gənclər Olimpiya Festivalının təntənəli bağlanış mərasimi keçirilib



(əvvəli 1-ci səhifədə)

Festivalın "Baku Crystal Hall"da keçirilən təntənəli bağlanış mərasimində Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini, XV Avropa Gənclər Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov, Avropa Olimpiya Komitələrinin (AOK) vitse-prezidenti Nils Nayqaard, növbəti festivala ev sahibliyi edəcək Slovakiyanın Banska Bıstritsa bölgəsinin meri Yan Nosko, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və digər şəxslər iştirak ediblər.

Bağlanış mərasiminin iştirakçıları arasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Azərbaycan Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev də olublar.

Avropa Gənclər Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin (BOK) himayəsi altında keçirilir və 25 ildən artıq ənənəsi var. Bu festival 14-18 yaş arası gənc idmançılar üçün ilk çoxprofilli Avropa tədbiridir. Olimpiya bayrağı altında keçirilən festival Olimpiya ənənələri ilə zəngindir.

"Zirvələrə hazırıq" devizi altında keçirilən Bakı-2019 XV Avropa Gənclər Olimpiya Festivalının yarışları paytaxtın 12 idman obyektində yeddi gün davam edib. Festivalda 48 ölkədən 3900 atlet idmanın on növü - idman gimnastikası, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında 135 dəst medal uğrunda mübarizə apardı.

Azərbaycan festivalda 122 idmançı ilə iştirak edib. Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil ediblər. Azərbaycan bu idman növlərinin hər biri üzrə 18 nəfərlə təmsil olunub. Bundan başqa, cüdo yarışlarında 12, bədii gimnastikada 4, velosiped idmanında 6, tennisdə 4, üzgüçülük yarışlarında 6 idmançımız mübarizəyə qoşulub. Komanda idman növlərində isə voleybol və basketbol yığmalarımızın hər birinin heyətinə 12 idmançı daxil edilib. Oğlanlardan və qızlardan ibarət həndbol komandalarımızda ümumilikdə, 30 oyunçu yer alıb.

Festival günlərində idman obyektlərində 3500-dən çox könüllü fəaliyyət göstərib.

"Baku Crystal Hall"a toplaşmış tamaşaçılar və yüz minlərlə televiziya izləyiciləri təntənəli bağlanış mərasiminin unudulmaz anlarının şahidi oldular.

Bağlanış mərasimi Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başladı.

Azərbaycan Respublikasının dövlət bayrağının, eləcə də, AOK-un və BOK-un bayraqlarının dalğalandığı arenada bayraqlar paradına start verildi. İlk olaraq Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin - Yunanıstanın, sonra digər ölkələrin bayraqları əlifba sırası ilə arenaya gətirildi. Bayraq paradı ev sahibi Azərbaycanın bayrağının gətirilməsi ilə başa çatdı.

Daha sonra XV Avropa Gənclər Olimpiya Festivalının ən maraqlı anlarını əks etdirən film nümayiş etdirildi.

Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini, XV Avropa Gənclər Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov və AOK-un vitse-prezidenti Nils Nayqaard səhnəyə gəldilər.

"EYOF Bakı 2019"un Təşkilat Komitəsinin sədri Yaqub EYYUBOV çıxış edərək dedi:

- Hörmətli beynəlxalq və milli federasiyaların rəsmiləri.

Əziz gənc idmançılar.

Xanımlar və cənablar.

Yeddi gün ərzində yüksək əhval-ruhiyyə, gərgin mübarizə və dostluq şəraitində keçən XV Avropa Gənclər Olimpiya Festivalı bu gün başa çatır. Festivalın bağlanış mərasimindəki çıxışımda səmimi hisslərimi sizinlə bölüşmək istəyirəm. Ölkəmlə, ölkəmin rəhbərliyi, insanları ilə və bu yarışlarda fəal iştirak edən bütün gənc dostlar, sizinlə qürur duyuram. Mən qürur duyuram ki, biz bu festivalı ənənəvi olaraq yüksək səviyyədə təşkil etməklə Azərbaycanın idman ölkəsi olduğunu bir daha nümayiş etdirdik. Biz idmanı sevirik, çünki o, dünyada dostluq, sülh və sağlam həyat sürmək üçün ən təsirli və önəmli vasitədir.

Təşkilat Komitəsi və bütün Azərbaycan idmançıları adından festivala və ölkəmizdə idmanın inkişafına böyük dəstək verən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk.

Əziz gənclər, siz 10 idman növü üzrə 900-dən çox medal uğrunda mübarizə aparmaqla yanaşı, ən önəmlisi, Olimpiya hərəkatı ideyalarına sadiq qalaraq, birlik və dostluq nümayiş etdirdiniz. Ümumi nəticədə XV Avropa Gənclər Olimpiya Festivalının qalibi olmuş Rusiya komandasını, müvafiq olaraq ikinci və üçüncü yerləri tutmuş Böyük Britaniya və Türkiyə idmançılarını ürəkdən təbrik edirəm.

Xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycan idmançıları Gənclərin Avropa Olimpiya festivallarında iştirak tarixlərinin ən böyük uğurunu məhz Bakı şəhərində əldə etdilər. Onlar ümumi komanda hesabında dördüncü yerə çıxdılar, 10-u qızıl, 7-si gümüş və 6-sı bürünc olmaqla, 23 medal qazandılar. Bu nailiyyət münasibətilə Azərbaycan xalqını, idmançılarımızı və onların məşqçilərini səmimi qəlbdən təbrik edirəm.

Təbii ki, nəticələrindən asılı olmayaraq, festivalda iştirak etmiş bütün komandaları təbrik edirəm - bu cür yarışlarda iştirakın özü də böyük bir qələbədir.

Ümidvaram ki, əziz idmançılar, Azərbaycanda keçirdiyiniz bir həftə sizlərin həyatında unudulmaz izlər buraxdı və bu duyğuları Azərbaycandan gedərkən özünüzlə aparacaq və Bakıda - gözəl paytaxtımızda keçirdiyiniz günləri bütün ömrünüz boyu xoş xatirələrlə yada salacaqsınız.

Mən Avropa Gənclər Olimpiya Festivalında iştirak etmiş bütün məşqçi və hakimlərə, yardımçı heyət nümayəndələrinə, idman arenalarına gələn azarkeşlərə də təşəkkür edirəm.

Canlı izlədiyimiz festival gənclərin böyük bir qismi üçün ilk mühüm sınaq oldu. Əminəm ki, sıralarınızdan gələcəyin Olimpiya, dünya və Avropa çempionları yetişəcək və biz də böyük fəxrlə xatırlayacağıq ki, bu nailiyyətlərin əsası məhz Bakı şəhərində qoyulub.

XV Avropa Gənclər Olimpiya Festivalı başa çatdı. 2021-ci ildə növbəti - XVI Festival Slovakiyanın Banska Bistritsa şəhərində keçiriləcək. Əminik ki, bu yarışlar da yüksək səviyyədə təşkil olunacaq.

Əziz dostlar, əziz gənclər, Azərbaycanda keçiriləcək gələcək idman yarışlarında yenidən görüşmək ümidi ilə sağollaşır və bir daha hər birinizə Bakıdakı festivalın iştirakçısı olduğunuza görə səmimi qəlbdən "Çox sağ olun!" deyirik.

x x x

Sonra AOK-un vitse-prezidenti Nils NAYQAARD çıxış edərək dedi:

- Hörmətli Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini cənab Yaqub Eyyubov.

Əziz idmançılar.

Əziz dostlar və Avropanın Olimpiya hərəkatının qonaqları.

İcazə verin, Avropanın bütün Milli Olimpiya Komitələrinin ən səmimi salamlarını çatdırım.

Burada, Bakıda biz XV Yay Avropa Gənclər Olimpiya Festivalının maraqlı həftəsini keçirdik.

Bu, Avropa idmanının, qitəmizin ən yaxşı gənc idmançılarının əsl bayramı oldu. Burada yarışan atletləri seyr etdikdən sonra əminliklə demək olar ki, Avropanın idman aləmində aparıcı mövqeyi yaxın zamanlarda dəyişməz olaraq qalacaq.

Bütün idmançıları təbrik edirik. Ümidvaram ki, burada əldə etdiyiniz təcrübə sizi gələcəkdə həm idman, həm də digər sahələrdə daha böyük zirvələri fəth etməyə ilhamlandıracaq.

Siz dostluq, kamillik və hörmət kimi Olimpiya dəyərlərini təcəssüm etdirdiniz və biz bütün həftə izlədiyimiz çıxışlarınızdan fərəhləndik.

Azərbaycanlı dostlarımıza və təşkilatçılara minnətdarıq. Çünki onlar bir daha bütün dünyaya nümayiş etdirdilər ki, çox idman növlü mükəmməl yarışları təşkil etməyə qadirdirlər.

Öz təbəssümü və nəzakətli davranışı ilə festivalın ərsəyə gəlməsində yardımçı olmuş üç min beş yüz könüllüyə xüsusi minnətdarlığımızı bildiririk.

Avropa Gənclər Olimpiya Festivalı gənclərin bayramıdır və biz şadıq ki, həmin Oyunlarda bu qədər sayda gənc iştirak etdi.

Yerli təşkilatçılar gənclərlə çox peşəkar iş apardılar, o cümlədən Bakının 49 məktəbi ilə onların Avropadakı həmkarları arasında qardaşlaşma tellərini möhkün edən Olimpiya Mədəniyyəti və Təhsili Proqramını həyata keçirdilər.

Tələbələr yerli mədəniyyət, tarix, incəsənət və idmanla bağlı fikirlərini bir-biri ilə bölüşdülər, həmçinin Olimpiya dəyərləri və prinsipləri ilə tanış oldular.

Onların keçdikləri təlimlər və gördükləri işlər Atletlər kəndində Olimpiya Mədəniyyəti və İdmanı Pavilyonunda nümayiş olundu. Gənc idmançılar, komanda üzvləri və digər qonaqlar orada bütün iştirakçı Avropa ölkələri ilə tanış oldular və Olimpiya ruhunu duydular.

Avropa gənclərini bir araya gətirən bu Oyunlardan əldə edilmiş nəticələr daim yaddaşlarda qalacaq.

İdman bir daha sübut etdi ki, o, fərqli mənşəyə, inanclara malik olan insanları dinc yarış şəraitində birləşdirməkdə böyük gücə malikdir.

Hər zaman ən xoş xatirələrlə yada salacağımız Avropa idmanının və gənclərin unudulmaz bir həftəsinə görə sağ ol Bakı, sağ ol Azərbaycan!

İndi isə, mən XV Avropa Gənclər Olimpiya Festivalını bağlı elan edirəm.

x x x

Daha sonra Olimpiya himninin sədaları altında AOK-un və BOK-un bayraqları endirildi. Festivalın çempionu olan Azərbaycan idmançıları - Xasay Həsənli, Həsrət Cəfərov, Elmir Əliyev, Fərid Sadıxlı, Qurban Qurbanov və Turan Bayramov BOK-un bayrağını təntənəli şəkildə səhnədən çıxardılar.

AOK-un bayrağı isə Təşkilat Komitəsinin sədri Yaqub Eyyubova təqdim olundu. Yaqub Eyyubov bayrağı rəmzi olaraq bir neçə dəfə dalğalandırdıqdan sonra AOK-un vitse-prezidenti Nils Nayqaarda təqdim etdi. AOK-un vitse-prezidenti isə bayrağı növbəti - XVI Avropa Gənclər Olimpiya Festivalına ev sahibliyi edəcək Slovakiyanın Banska Bistritsa bölgəsinin meri Yan Noskoya verdi.

Slovakiyanın dövlət himninin sədaları altında bu ölkənin bayrağı arenada qaldırıldı.

Slovakiyanın Banska Bistritsa bölgəsinin meri Yan NOSKO mərasimdə çıxış edərək dedi:

- Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov.

Avropa Olimpiya Komitələrinin vitse-prezidenti Nils Nayqaard.

Əziz idmançılar, əziz qonaqlar.

Yaxşı bir ideyam var. Mən sizi öz cazibəsi ilə seçilən bir məkana dəvət etmək istəyirəm. Baxmayaraq, o, kiçik bir yerdir, lakin orada böyük potensial gizlənir. Mən sizi elə bir ölkəyə dəvət etmək istəyirəm ki, oranın əhalisi Nyu-York şəhərinin əhalisindən azdır. Lakin həmin ölkə poppartın banisinin, paraşütü və ya uçan maşını ixtira edənlərin vətənidir. Peter Saqan və ya Zdeno Kara kimi idmançılar orada dünyaya göz açıblar. Yaxşı bir ideyam var. Mən sizi öz adımdan məhəbbəti ehtiva edən ölkəyə dəvət edirəm. Bir halda ki, məhəbbət ürəkdə doğulursa, sizi bu ölkənin qəlbinə dəvət edirəm. Bilirsiniz niyə? Çünki şəhər Slovakiyanın tam mərkəzində yerləşir və o, hər yerə yaxındır. Çünki o, Olimpiya çempionlarının və dünya şöhrətli idmançıların şəhəridir.

Futbolçu Marek Hamşik, biatlonist Anastasiya Kuzmina və idman yerişi ustası Matej Tot kimi idman ulduzları Banska Bistritsa şəhərinin yetirmələridir. Sizin hamınızı, gələcək idman ulduzlarını 2021-ci ildə Banska Bistritsaya dəvət edirəm. Əminəm ki, siz məmnun qalacaqsınız. Bizim gözəl şəhərimiz dağların qoynunda yerləşir və bütün slovak şəhərləri ilə müqayisədə ən gözəl meydana və şəhər mərkəzinə malikdir.

2021-ci ildə Avropanın mərkəzinə gəlin. Hamımız sizi Slovakiyada, Banska Bistritsada səbirsizliklə gözləyirik. Biz 2017-ci ildə Avropanın idman şəhəri adını fərəh hissi ilə daşıdıq və 2021-ci ildə biz Avropa Gənclər Olimpiya Festivalının məşəlini fərəhlə daşıyacağıq. Hamınız dəvətlisiniz! Çox sağ olun.

x x x

Bağlanış mərasimində XVI Olimpiya Festivalına ev sahibliyi edəcək Slovakiya haqqında film nümayiş olundu.

Daha sonra yeddigünlük idman bayramının başa çatmasının rəmzi olaraq festivalın məşəli gimnastların ifasında maraqlı kompozisiyanın müşayiəti ilə söndürüldü.

Məşəlin söndürülməsindən sonra bağlanış mərasimi maraqlı konsert proqramı ilə davam etdi.

Qeyd edək ki, festivalda 23 medal - 10 qızıl, 7 gümüş və 6 bürünc qazanan Azərbaycan millisi komanda hesabında dördüncü pillədə qərarlaşıb. Medalların 16-sını güləşçilərimiz qazanıblar. Pəhləvanlarımız 8 qızıl, 5 gümüş və 3 bürünc medala sahib olublar. Medalların sayına görə komandamızda ikinci yerdə cüdoçular qərarlaşıblar. Cüdoçular ölkəmizin aktivinə 2 qızıl, 1 gümüş və 3 bürünc medal yazdırıblar. Komandamız idman gimnastikası yarışında isə 1 gümüş medala sahib olub.

"EYOF Bakı 2019" XV Avropa Gənclər Olimpiya Festivalında yeddigünlük idman mübarizəsinin yekununda 38 ölkənin təmsilçiləri medal qazanıblar. Siyahıya aktivində 66 (28 qızıl, 17 gümüş və 21 bürünc) medal olan Rusiya komandası başçılıq edir. Böyük Britaniya idmançıları 25 medalla (11 qızıl, 12 gümüş, 2 bürünc) ikinci, Türkiyə komandası isə 27 medalla (11 qızıl, 6 gümüş və 10 bürünc) üçüncü sırada qərarlaşıblar. Sonrakı yerləri müvafiq ardıcıllıqla İtaliya, Ukrayna, İspaniya, Fransa, Polşa, Belarus, Rumıniya, Almaniya, Xorvatiya, İsveç, Estoniya, Hollandiya, Finlandiya, Çexiya, İrlandiya, Norveç, Gürcüstan, Danimarka, Bolqarıstan, Kipr, İsrail, Kosovo, Avstriya, Macarıstan, Belçika, İsveçrə, Moldova, Yunanıstan, Serbiya, Portuqaliya, Litva, Latviya, Slovakiya və Sloveniya idmançıları tutublar.

Bununla da Azərbaycan daha bir mötəbər turnirə yüksək səviyyədə ev sahibliyi etdi. Bu mötəbər idman turnirinin uğurlu təşkilini təmin edən mühüm amillərdən biri son illər Azərbaycanın beynəlxalq idman tədbirlərinin keçirilməsində qazandığı zəngin təcrübədir. 2015-ci ildə tarixdə ilk Avropa Oyunları, 2016-cı ildə 42-ci Ümumdünya Şahmat Olimpiadası, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, son bir neçə ildə Formula-1 Qran-Prisi, bu ilin mayında UEFA Avropa Liqasının final qarşılaşması kimi mötəbər yarışlara uğurla ev sahibliyi edən Azərbaycan XV Avropa Gənclər Olimpiya Festivalını da müvəffəqiyyətlə təşkil etməklə bir daha dünyanın diqqət mərkəzinə çevrildi.









# Milli Olimpiya Komitəsində “Zəfər günləri”

(əvvəli 1-ci səhifədə)

Əvvəlcə idmançıların zəfər anlarını xatırladan videoçarx nümayiş olunub. Ardınca MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə mükafatçıları təbrik edib. O bildirib ki, Azərbaycan növbəti dəfə öz qonaqpərvərliyi və təşkilatçılıq bacarığı ilə bütün Avropanı heyran edib: “Bu gün ölkə idmanının yeni qələbəsini qeyd edirik. Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə idman və Olimpiya Hərəkatı özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Atletlərimiz müxtəlif səviyyəli beynəlxalq yarışlarda bir qayda olaraq böyük uğurlar qazanırlar. Ölkəmizdə böyük idman tədbirləri keçirilir. Birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edən ölkəmiz XV Avropa Gənclər Olimpiya Festivalına da böyük uğurla ev sahibliyi etdi. Gənc idmançılarımız 23 medal qazanaraq, Olimpiya Festivalını medal qazanan ölkələr arasında 4-cü pillədə başa vurdular. Bu böyük qələbə münasibətilə gənc idmançılarımızı və idman ictimaiyyətini təbrik edirəm”.



Gənclər və İdman naziri Azad Rəhimov Azərbaycanın festivalı yüksək səviyyədə keçirdiyini vurğulayıb: “Mükafatçılar bir daha sübut etdilər ki, Azərbaycan idman ölkəsidir. 15-ci dəfə keçirilən bu festivalda komandamız ilk dəfə 4-cü pillədə qərarlaşdı. Bu da o deməkdir ki, gənc idmançılar arasında da gələcəyin ulduzları var. Festival çərçivəsində 3 proqram həyata keçirdik. Onların hər biri bizim üçün önəmli idi. Azərbaycan festivalı yüksək səviyyədə təşkil etdi. Sevindirici haldır ki, yarış zamanı heç bir problem yaşanmadı”.

Təhsil naziri Ceyhun Bayramov Azərbaycanın növbəti dəfə böyük idman tədbirini yüksək səviyyədə təşkil etdiyini bildirib. Onun sözlərinə görə, Azərbaycan komandasının 48 ölkə arasında 4-cü yeri tutması bir daha sübut etdi ki, idmana peşəkar səviyyədə diqqət göstərilir. Nazir festivalın keçirilməsində verdiyi dəstəyə görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, eləcə də təşkilatçılara minnətdarlıq edib.

Daha sonra medalçılar mükafatlandırılıb. “Zəfər günləri” layihəsi Bakı-2015 I Avropa Oyunları və Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarında da həyata keçirilib.

Qeyd edək ki, yeddi gün keçirilən Bakı-2019-da Azərbaycan idmançıları 23 medal - 10 qızıl, 7 gümüş və 6 bürünc qazanıblar. Bu medallar üç idman növündə əldə olunub. Milli komanda güləşdə 16 (8 qızıl, 5 gümüş, 3 bürünc), cüdoda 6 (2 qızıl, 1 gümüş, 3 bürünc), idman gimnastikasında isə 1 (1 gümüş) medala yiyələnib. Bu göstərici ilə Azərbaycan Bakı-2019-u 4-cü pillədə başa vurub. 38 ölkənin düşə bildiyi medal siyahısında isə Rusiya birinci olub.




***“Zəfər günləri” tədbiri başa çatdıqdan sonra “Olimpiya dünyası” qəzeti idman rəsmiləri, məşqçilər və idmançıların fikirlərini öyrənib.***

## Çingiz Hüseynzadə: “Qələbə münasibəti ilə Azərbaycan gənclərini, xalqımızı təbrik edirəm”

***Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə “Zəfər günləri” ilə bağlı təəssüratlarını “Olimpiya dünyası” qəzeti ilə bölüşdü:***

- Bu gün MOK-un inzibati binasında “Zəfər günləri”ni qeyd edirik. Növbəti mötəbər idman tədbirində Azərbaycan idmançıları ümumi nəticədə 23 medalla 4-cü yeri tutdular. Bu, böyük uğurdur. Qələbə münasibəti ilə Azərbaycan gənclərini, xalqımızı təbrik edirəm.

Biz Olimpiya Festivalının mükafatçılarını və “Olimpiya mədəniyyəti və təhsil” proqramının qaliblərini mükafatlandırdıq. Bu yarış gənc idmançılarımızın gələcək karyerasında mühüm rol oynayacaq. Qeyd edim ki, “Olimpiya mədəniyyəti və təhsil” proqramı Bakıda keçirilən XV Avropa Gənclər Olimpiya Festivalının irsi çərçivəsində həyata keçirildi və Bakının 49 məktəbini əhatə edirdi. Proqram Beynəlxalq Olimpiya Komitəsinin, Avropa Olimpiya Komitəsinin dəstəyi, Azərbaycan Milli Olimpiya Komitəsinin təşkilatçılığı, Bakı-2019 Əməliyyat Komitəsinin, həmçinin Təhsil, Gənclər və İdman Nazirliklərinin köməyi ilə reallaşdırıldı. Proqramın məqsədi Avropa Olimpiya Komitəsinə üzv ölkələrin gəncləri arasında və onların vasitəsilə mədəniyyəti, idmanı və Olimpiya hərəkatını təşviq etməkdən ibarətdir. Qeyd edim ki, “Olimpiya mədəniyyəti və təhsil proqramı” layihəsi Avropa Gənclər Olimpiya Festivalında ilk dəfədir ki, təşkil edilir. Gənc idmançılarımıza gələcək karyeralarında da uğurlar arzulayıram. İnanıram ki, onlar ölkəmizi digər mötəbər yarışlarda da şərəflə təmsil edəcəklər.

## “Komandamızı parlaq qələbə münasibəti ilə təbrik edirəm”

***Namiq Əliyev (Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti):***

- Güləş yarışları göründüyü kimi, çox çətin keçdi. Bir-birindən ağır mübarizələrə şahidlik etdik. Komandamızın 18 üzvündən 16-sı mükafatçılar sırasında yer aldı. 8 güləşçimiz yarışları qızıl medalla tamamladı. Bu çox yüksək nəticədir. Güləşçilərimiz qazandığı nailiyyətlərlə bir daha sübut etdilər ki, onlar güclüdürlər. Komandamızı bu parlaq qələbə münasibəti ilə təbrik edirəm. Qarşıda güləşçilərimizi dünya çempionatı gözləyir. Təqvim çox sıx olduğu üçün idmançılarda bir qədər yorğunluq var. Güləşçilərimizi demək olar ki, bu ərəfədə ardıcıl olaraq biri-birindən çətin sınaqlar gözləyir. Lakin inanıram ki, pəhləvanlarımız qarşıdakı yarışlardan da üzü ağ çıxmağı bacaracaqlar. Komandamıza gələcək yarışlarda uğurlar arzulayıram.

## “Əldə olunan nəticələri komandamız üçün uğurlu saymaq olar”

***Elmar Babanlı (Azərbaycan Cüdo Federasiyasının baş katibi):***

- Cüdo üzrə yığma komandamız Avropa Gənclər Olimpiya Festivalının fərdi yarışlarında 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazandılar. Bürünc medal qazanan idmançılardan biri də xanım cüdoçumuzdur. Digər bir xanım cüdoçumuz isə üçüncü yer uğrunda görüşdə məğlub olaraq beşinci yerlə kifayətləndi. Nəticələr göz qabağındadır. Əldə olunan nəticələri komandamız üçün uğurlu saymaq olar. Cüdo yığmamız komanda hesabında üçüncü yeri tutdu. Oğlanların komanda hesabında isə yığmamız birinci oldu. Komandamızı bu qələbə münasibəti ilə təbrik edirəm. Yeniyetmə idmançılarımızı qarşıda Qazaxıstanda keçiriləcək dünya birinciliyi gözləyir. Ümid edirəm ki, cüdoçularımız həmin yarışda da uğurla çıxış edərək ən azı burdakı nəticələri təkrarlayacaqlar.

## “İdmançımız etimadı doğrultdu”

***Rza Əliyev (kişi idman gimnastikası üzrə yığmanın baş məşqçisi):***

- Biz festivalda Səməd Məmmədlidən medal gözləyirdik. O, dayaqla tullanma, sərbəst hərəkətlər və çoxnövçülükdə finala düşməyi bacardı. Şükürlər olsun ki, idmançımız dayaqla tullanma yarışlarında ümidləri və ona olan etimadı doğrultdu. Səməd sərbəst hərəkətlərdə də medal qazanmağa çox yaxın idi. Amma alınmadı. O, gəncdir və gələcəyi hələ qabaqdadır. Bizi qarşıda Almaniyada keçiriləcək dünya çempionatı gözləyir.

## “Qızıl medalların sayı daha çox ola bilərdi”

***Ramiz Ramizzadə (Cüdo üzrə yeniyetmələrdən ibarət yığma komandanın baş məşqçisi):***

- Azərbaycan cüdoçuları festivalda 12 idmançı ilə təmsil olunurdu. Komandamızın heyətində yer alan idmançılardan 8-i oğlan idi. Cüdoçularımız festivalın fərdi yarışlarını 2 qızıl, 1 gümüş və 3 bürünc medalla başa vurdular. Qızıl medalların sayı daha çox ola bilərdi. Lakin final görüşündə komandamızın əsas üzvlərindən olan Vüqar Talıbov rəqibinə məğlub oldu. Ümumi nəticələri komandamız üçün qənaətbəxş hesab etmək olar. Komandamız bu ərəfədə ardıcıl olaraq bir neçə turnirdə iştirak etdi. Sentyabr ayında isə yeniyetmə cüdoçularımız dünya çempionatında qüvvələrini sınayacaqlar. Bir qədər istirahət edib, dünya çempionatının hazırlıqlarına başlayacağıq. İnanıram ki, cüdoçularımız bu yarışda da onlara bəslənən ümidləri doğruldacaqlar.

## “Daha böyük uğurlar əldə etməyə çalışacağam”

***Xasay Həsənli (Bakı-2019-un qalibi):***

-Şadam ki, doğma divarlar arasında keçirilən yarışda qızıl medal qazandım. 48 Avropa ölkəsinin iştirak etdiyi bu yarışda Azərbaycanın himnini səsləndirdiyim, üçrəngli bayrağımızı dalğalandırdığım üçün qürur duyuram. Bundan sonra daha böyük uğurlar əldə etməyə çalışacağam.

## “Çempion olmağı düşünürdüm”

***Qurban Qurbanov (Bakı-2019-n qalibi):***

- Yarışlara çox ciddi hazırlaşmışdıq. Xalçaya çıxanda ancaq və ancaq çempion olmağı düşünürdüm. Federasiya rəhbərli, məşqçi heyəti də məndən qızıl medal gözləyirdi. Sevinirəm ki, mənə bəslənilən etimadı doğrulda bildim. Çempion olmağım mənə gələcək mötəbər yarışlarda daha inamla çıxış etməyə stimul verir. Bu yarışdan sonra artıq gənclərin yığmasında yarışacağam. Qarşıda məni gənclər arasında Azərbaycan çempionatı gözləyir.

## “Bu qələbə indiyədək qazandığım ən böyük uğurdur”

***Hüseyn Məmmədov (Bakı-2019-un cüdo yarışlarının qalibi):***

- Yarışlar çox çətin keçdi. Əsas rəqiblərim Almaniya və Rusiya idmançıları idilər. Həmin idmançılarla ötən ay Polşada təşkil olunan Avropa birinciliyində qarşılaşmışdım. Yəni rəqiblərim tanış idmançılar idilər. Avropa birinciliyindən fərqli olaraq, bu dəfə Bakıda keçirilən Avropa Gənclər Olimpiya Festivalında qızıl medala sahib çıxdım. Final görüşüm çətin keçdi. Həlledici görüşdə rusiyalı idmançıya qalib gəldim. Komandamıza qızıl medal qazandırdığım üçün çox sevinirəm. Bu qələbə indiyədək qazandığım ən böyük uğurdur. Qələbəmdə zəhməti olan hər kəsə minnətdarlıq bildirirəm.

Baku 2019 EUROPEAN YOUTH OLYMPIC FESTIVAL

# XV Avropa Gənclər Olimpiya Festivalı

**B a k ı - 2 0 1 9**



# Azərbaycan idmançıları Avropa Gənclər Olimpiya Festivalını 23 medalla başa vurublar

***Bakıda təşkil olunan XV Avropa Gənclər Olimpiya Festivalına iyulun 27-də yekun vurulub. “Zirvələrə hazırıq” devizi altında keçirilən mötəbər idman tədbirində 48 ölkəni təmsil edən 3900 atlet idmanın 10 növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında 135 dəst medal uğrunda mübarizə aparıb. Azərbaycan komandası festivalda 122 idmançı ilə təmsil olunub. Olimpiya bayrağı altında keçirilən və Olimpiya ənənələri ilə zəngin olan festivalda Azərbaycan yığma komandası 10 qızıl, 7 gümüş və 6 bürünc medal qazanaraq, 48 ölkə arasında 4-cü yeri tutub. Medal sıralamasında birinci yeri Rusiya (28 qızıl, 17 gümüş, 21 bürünc) atletləri tutublar. Böyük Britaniya (11 qızıl, 12 gümüş, 2 bürünc) ikinci, Türkiyə (11 qızıl, 6 gümüş, 10 bürünc) isə üçüncü pillədə qərarlaşıb.***

## Güləş

EYOF çərçivəsində Heydər Əliyev adına İdman-Konsert Kompleksində keçirilən güləş yarışları iyulun 21-23-də təşkil olunub. İdmançılarımız güləşin hər 3 növündə mübarizə aparıblar.

Sərbəst güləşçimiz Murad Haqverdiyev (45 kq) A qrupunda keçirdiyi ilk görüşdə Rusiya güləşçisinə qalib gəlib. Ardınca qrupda Belarus və Türkiyə təmsilçilərini məğlub edən həmyerlimiz yarımfinala vəsiqə qazanıb. Bu mərhələdə polşalı rəqibini də üstələyən Murad finala yüksəlib. Son görüşdə Gürcüstan idmançısından da güclü olan güləşçimiz çempionluq sevinci yaşayıb.

Komanda yoldaşından geri qalmayan Əbülfəz Nəsirov (55kq) da cəmi 30 saniyə ərzində britaniyalı həmkarını “tuşe” ilə üstələyib. Gürcüstan və Rusiyadan olan rəqiblərinə də vaxtından əvvəl qalib gələn sərbəst güləşçimiz finala adlayıb. Ancaq həlledici görüşdə İtaliya idmançısına məğlub olan Əbülfəz gümüş medalla kifayətlənib.

Yunan-Roma güləşçimiz Fərid Sadıxlı (45 kq) da festivala inamlı start verib. Həmyerlimiz ilk hissədə İtaliya idmançısını məğlub edərək 1/4 finala yüksəlib. Gürcüstan və Rusiya idmançılarını da mübarizədən kənarlaşdıran güləşçimiz finala vəsiqə qazanıb. Finalda Türkiyə güləşçisi üzərindəki inamlı qələbə Fərid Sadıxlıya çempion olmaq sevinci yaşadıb.

Nihat Məmmədli (55 kq) də ilk görüşdən tam üstünlüklə ayrılaraq adını 1/4 finala yazdırıb. Ancaq bu mərhələdə gürcü həmkarına məğlub olub. Təsəlliverici görüşdə Fransa nümayəndəsinə cəmi 1 dəqiqə ərzində qalib gələn təmsilçimiz 3-cü yer uğrunda mübarizə aparmaq imkanı əldə edib. Həlledici qarşılaşmada türkiyəli güləşçiyə heç bir şans verməyən Nihat bürünc medalı boynundan asıb.

Sərbəst güləş yarışlarında Mircavad Nəbiyev (48 kq) ilk görüşdə Rusiya yığmasının üzvüylə qarşılaşmanın son saniyələrində qələbəni əldən verib. Rəqib finala yüksəldiyi üçün M.Nəbiyev mübarizəni təsəlliverici görüşlə davam etdirib və türkiyəli həmkarına ilk hissədə qalib gəlib. Güləşçimiz bürünc medal uğrunda isveçrəli Tomas Fişerlə qarşılaşıb. Mircavad Nəbiyev rəqibini 10:0 hesabı ilə məğlub edərək bürünc medal qazanıb.

Yığmamızın digər üzvü Sabir Cəfərov (60 kq) ilk mərhələdə macar rəqibi Marsel Deliyə 10:0, daha sonra belaruslu Hramyka Anatoliyə 12:1 hesabı ilə qalib gələrək yarımfinala vəsiqə qazanıb. Yarımfinalda İvan Nikolaev Stoyanova 5:1 hesabı ilə qalib gələn idmançımız finala vəsiqəni təmin edib. Güləşçimiz qızıl medal uğrunda Rusiya təmsilçisi Fyodor Baltuevlə qarşılaşıb. Həlledici görüşdə rəqibinə uduzan həmyerlimizin qazancı gümüş medal olub.

Yunan-Roma güləşi üzrə təmsilçimiz Qurban Qurbanov (48 kq) ilk qarşılaşmada Polşadan olan həmkarı Kaçper Karaskieviçə tam üstünlüklə qalib gəlib - 8:0. O, daha sonra türkiyəli Emin Çakırı 10:0, Maksim Stupakeviçi (Belarus) 5:0 hesabı ilə məğlub edərək finala vəsiqə qazanıb. Həlledici görüşdə güləşçimiz gürcüstanlı Xviça Abduladze ilə qarşılaşıb. Həlledici qarşılaşma həmyerlimizin qələbəsi ilə başa çatıb və Qurban Qurbanov EYOF-un qalibi olub.

Digər güləşçimiz Həsrət Cəfərov (60 kq) litvalı güləşçi Donatas Rindeikisi çətinlik çəkmədən məğlub edib- 12:0. Güləşçimiz daha sonra Belarus təmsilçisi Nikita Muraşkanı məğlub edərək yarımfinala vəsiqə qazanıb - 13:5. Yarımfinalda idmançımızın rəqibi Andrea Setti (İtaliya) olub. Rəqibini 6:0 hesabı ilə məğlub edən güləşçimiz finalda iştirak etmək hüququ qazanıb. Finalda rusiyalı rəqibi Maqomed Qiqiyevi mübarizədən kənarlaşdıran güləşçimz yarışın baş mükafatına sahib çıxıb.

Qadın güləşçimiz Gültəkin Şirinova (46 kq) da finala qədər inamla irəliləyib. O, finlandiyalı rəqibi Jutta Ala-Rantanı 7:4, Belarus idmançısı Pertsava Tatisiananı 6:1, yarımfinalda fransalı Jastin Fanni Viqruksu 10:3 hesabı ilə məğlub edərək həlledici mərhələyə vəsiqə əldə edib. Qızıl medal uğrunda görüşdə idmançımız rumıniyalı Georgiana-Lavinia Antuca ilə üz-üzə gəlib. Ancaq son görüşdə rumıniyalı rəqibinə uduzan Gültəkin gümüş medalla kifayətlənib.



Mərziyə Sadıqova (61 kq) isə finala gedən yolda ilk görüşdə Ukrayna idmançısı Manola Skobelskadan üstün olub - 6:3. Sonra rusiyalı Alina Kasabievanı (*1:1) məğlub edərək yarımfinala yüksəlib. Finala vəsiqə uğrunda mübarizədə rəqibi türkiyəli Elmas Çeliki 1:0 hesabı ilə məğlub edən imançımız həlledici qarşılaşmada İtaliya idmançısı Aurora Russo ilə mübarizə aparıb. Xanım güləşçimiz final görüşünü ikinci yerdə başa vurub və gümüş medala layiq görülüb.

Sərbəst güləşçimiz Kənan Heybətov (51 kq) debütdə Ukrayna təmsilçisini tam üstünlüklə məğlub edib. Daha sonra Finlandiya idmançısına heç bir şans verməyən Kənan yarımfinala yüksəlib. Yunan güləşçini də vaxtından əvvəl məğlub edən K.Heybətov finala çıxıb. Finalda Rusiya güləşçisiylə qarşılaşmadan da qalib ayrılan həmyerlimiz ölkəmizə növbəti qızıl medalı qazandırıb.

Digər güləşçimiz Cəbrayıl Hacıyev (65 kq) ilk görüşdə gürcü idmançısı üzərində inamlı qələbə qazanıb. Türkiyə pəhləvanını 1 dəqiqə ərzində xalçadan kənarlaşdıran C.Hacıyev 1/4 finala yüksəlib. Bu mərhələdə Yunanıstan təmsilçisi də yığmamızın üzvü qarşısında aciz qalıb. Cəbrayıl yarımfinalda İsveçrə idmançısına da güzəştə getməyib. Finalda Rusiya pəhləvanıyla gərgin keçən görüşün son saniyələrində hesabda önə keçən C.Hacıyev çempionluq sevinci yaşayıb.

Yunan-Roma güləşçimiz Elmir Əliyev (51 kq) ilk hissədə Norveç təmsilçisini mübarizədən kənarlaşdırıb. Daha sonra çətinliklə olsa da, Rumıniya idmançısından da güclü olub. Yarımfinalda gürcü rəqibinə qalib gələn həmyerlimiz adını finala yazdırıb. Həlledici görüşdə Ukrayna təmsilçisinə böyük hesabla (10:0) qalib gələn gənc pəhləvanımız çempion olub.

Xasay Həsənli (65 kq) isə ilk mərhələdə Yunanıstan idmançısını məğlub etməkdə çətinlik çəkməyib. Finlandiya və İsveçrədən olan rəqiblərinə də aman verməyən Xasay adını yarımfinala yazdırıb. Ukrayna güləşçisiylə gərgin mübarizə şəraitində keçən görüşdən də qalib ayrılan Həsənli finala yüksəlib. Həlledici qarşılaşma dramatik keçib. Son saniyələrdə rəqibi əks-fənddə yaxalayan Xasay fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qadın güləşçilərimizdən Birgül Soltanova (57 kq) startda Rusiya güləşçisinə uduzub. Digər güləşçimiz Elnurə Məmmədova ilk qarşılaşmada macar rəqibindən üstün olub. Daha sonra Ukrayna və Rumıniya idmançıları üzərində əzmkar qələbə qazanan Elnurə finala adlayıb. Ancaq son görüşdə Rusiya təmsilçisinə məğlub olaraq gümüş medalla kifayətlənib.

Nigar Mirzəzadə (65 kq) ilk görüşdə almaniyalı rəqibi ilə qarşılaşıb. Ancaq 1/4 finalda türkiyəli idmançıya müqavimət göstərə bilməyib. Rəqib finala yüksəldiyi üçün təsəlliverici görüşə çıxan Nigar britaniyalı güləşçiyə rahat qalib gələrək bürünc medal uğrunda qarşılaşmaya vəsiqə qazanıb. Son görüşdə polşalı rəqibi üzərində əzmkar qələbəyə sevinən Mirzəzadə bürünc medalın sahibi olub.

Beləliklə, XV Avropa Gənclər Olimpiya Festivalında iştirak edən 18 güləşçimizdən 16-sı fəxri kürsüdə yer alıb. Azərbaycanın gənc pəhləvanları yığmamızın aktivinə ümumilikdə, 16 (8 qızıl, 5 gümüş və 3 bürünc) medal qazandırıblar.

## Cüdo

Avropa Gənclər Olimpiya Festivalının cüdo yarışları Heydər Əliyev adına İdman Sarayında keçirilib. Yarışda 40 ölkədən 297 (165 oğlan, 132 qız) cüdoçu iştirak edib. Azərbaycan bu nüfuzlu turnirdə 12 cüdoçu (8 oğlan, 4 qız) ilə təmsil olunub.

Cüdoçularımız ilk gündə 1 qızıl və 2 bürünc medal qazanıblar. Qızıl medalı ölkəmizin aktivinə Turan Bayramov (60 kq) yazdırıb.

Komandamızın digər üzvü Şükran Zamanlı (55 kq) isə festivalda üçüncü yerə layiq görülüb. XV Avropa Gənclər Olimpiya Festivalının cüdo yarışlarında digər bürünc medalı komandamıza qadın idmançımız Gülşən Beşirova (44 kq) qazandırıb.

Yarışların ikinci günündə Komandamızın bayraqdarı Vüqar Talıbov (73 kq) Bakı-2019-un gümüş medalına sahib olub.

Komandamızın digər üzvləri Aytac Qardaşxanlı (57 kq) və Mətin Rzazadə (66 kq) isə yarışları beşinci pillədə başa vurub.

Fərdi yarışların son günündə Hüseyn Məmmədov (+90 kq) Avropa Gənclər Olimpiya Festivalının qızıl medalına layiq görülüb.

Komandamıza bürünc medalı isə Məhərrəm İmamverdiyev (81 kq) qazandırıb.

Festivalda 90 kq çəki dərəcəsində çıxış edən Ruslan Nəsirli isə ilk görüşdə bolqarıstanlı Borislav Vladova məğlub olaraq mübarizəni dayandırıb. Qızların yarışında Nərmin Əmirli (70 kq) səkkizdəbir finalda hollandiyalı Yael Van Hemstə məğlub olub. Təsəlliverici görüşdə idmançımız nəticə əldə edə bilməyib.

Beləliklə, Azərbaycanın gənc cüdoçuları Avropa Gənclər Olimpiya Festivalının fərdi yarışlarını 2 qızıl, 1 gümüş və 3 bürünc medalla başa vurublar.

Festivalın cüdo yarışlarının sonuncu günü qarışıq komandaların mübarizəsi ilə yadda qalıb. Qarışıq komanda yarışlarında Azərbaycan millisi 1/8 finalda Gürcüstan yığmasına 3:4 hesabı ilə məğlub olub. Bürünc medal uğrunda təsəlliverici yarışlarda iştirak edən yığmamız ilk mərhələdə Hollandiya komandasına 4:2 hesabı ilə qalib gəlsə də, növbəti görüşdə İtaliya yığmasına uduzub - 3:4.

Qarışıq komanda yarışlarının qalibi adına Türkiyə millisi layiq görülüb. Finalda Rusiya komandası ilə mübarizə aparan Türkiyə yığması 4:0 hesabı ilə qalib gələrək festivalın qızıl medalını qazanıb. Bürünc medal uğrunda görüşdə isə Almaniya yığması İtaliya komandasını 4:0 hesabı ilə məğlub edib.

## Gimnastika

Avropa Gənclər Olimpiya Festivalı çərçivəsində gimnastika yarışları Milli Gimnastika Arenasında keçirilib. İdman gimnastikası üzrə yarışlarda Avropanın 37 ölkəsinin idmançıları mübarizə aparıblar. Yarışda Azərbaycanı 4 gimnast - Səməd Məmmədli, Ağakazım Rüstəmov, Mənsum Səfərov və Milana Minakovskaya təmsil edib.

Təmsilçilərimizdən ən yaxşı nəticəni Səməd Məmmədli göstərib. O, çoxnövçülük, dəstəli at və sərbəst hərəkətlərdə finalçılar sırasında yer alıb. Komanda yarışlarında gimnastlarımız ümumi xal hesabı ilə 11-ci olublar. Qadın atletlərin təsnifat yarışlarında ölkəmizi təmsil edən Milana Minakovskaya dörd alətdə mübarizə apararaq, 44,300 xal qazanıb.

İdman gimnastikası üzrə finalda gimnastımız Səməd Məmmədli dəstəli at yarışlarında uğurla çıxış edərək EYOF-un gümüş medalına sahib çıxıb. İdmançımız hakimlərdən 13,600 xal alıb.

Gimnastımız çoxnövçülük yarışlarında 75.500 xalla 19-cu yerdə qərarlaşıb. Sərbəst hərəkətlərdə isə 13,733 xal toplayaraq altıncı yeri tutub.

## Üzgüçülük

Bakı Su İdmanı Sarayında keçirilən yarışda ölkəmiz 6 idmançı təmsil edib.

Azərbaycan atletlərindən Məryəm Şeyxəlizadəxangah 100 metr məsafəyə sərbəst, Rəşad Əlquliyev 400 metr məsafəyə sərbəst, Elyar Cahangirbəyov isə 100 metr məsafəyə arxasıüstə üzmə yarışlarında mübarizə aparıblar. M.Şeyxəlizadəxangah 58:85, R.Əlquliyev 4:19:85, E.Cahangirbəyov isə 1:01:64 saniyə nəticə göstərib.

200 metr məsafəyə batterflay üsulla üzmə yarışlarında iştirak edən Ramil Vəlizadə final mərhələsində finişə 2 dəqiqə 2,71 saniyə çataraq beşinci olub.

Digər üzgüçülərimiz Maksim Petrenko 100 metr məsafəyə sərbəst üsulla üzmə yarışında 56,78, Aysel Səfərova 400 metr məsafəyə sərbəst üzmə yarışında 4 dəqiqə 47,84 saniyə nəticə göstərib. 1500 metr məsafəyə sərbəst üsulla üzmə yarışındakı təmsilçimiz Rəşad Əlquliyev finişə 17 dəqiqə 36,55 saniyəyə çatıb.

Məryəm Şeyxəlizadəxangah 100 metr məsafəyə batterflay üsulu ilə üzmə yarışının final mərhələsində 1 dəqiqə 0.95 saniyə nəticə göstərərək 6-cı yeri tutub. Üzgüçülərimiz Aysel Səfərova 200 metr məsafəyə sərbəst üzmə yarışında 2 dəqiqə 18,22, Elyar Cahangirbəyov 200 metr məsafəyə arxası üstə üzmə yarışında 2 dəqiqə 14,82 saniyə nəticə göstəriblər.

50 və 200 metr məsafəyə sərbəst üzmə yarışlarında atletimiz Maksim Petrenko müvafiq olaraq, 26.03 və 2 dəqiqə 4.66 saniyə nəticə göstərərək mübarizəni erkən dayandırıb. Ramil Vəlizadə isə 100 metr məsafəyə batterflay üsulla üzmə yarışında 9-cu yeri tutub.

Üzgüçülük yarışlarının sonuncu günündə Azərbaycanın üç atleti mübarizə aparıb. Təmsilçilərimizdən Məryəm Şeyxəlizadəxangah 50 metr, Aysel Səfərova 800 metr məsafəyə sərbəst, Elyar Cahangirbəyov isə 400 metr məsafəyə fərdi qaydada qarışıq üzmə yarışlarında qüvvələrini sınayıblar.

M.Şeyxəlizadəxangah təsnifat mərhələsində 26.72 saniyə nəticə göstərərək yarımfinalda mübarizə aparmaq imkanı əldə edib. Yarımfinalda müəyyən olunmuş məsafəni 26.68 saniyəyə qət edən təmsilçimiz həlledici mərhələyə vəsiqə qazana bilməyib.

Elyar Cahangirbəyov isə 400 metr məsafəyə fərdi qaydada qarışıq üzmə yarışında 4 dəqiqə 55.73 saniyə nəticə göstərib. Bu nəticə təmsilçimizin finala vəsiqə əldə etməsi üçün kifayət etməyib.

Aysel Səfərova 800 metr məsafəyə sərbəst üzmə yarışında finişə 9 dəqiqə 49 saniyəyə çatsa da medalçılar sırasına düşə bilməyib.

*(ardı 5-ci səhifədə)*

EUROPEAN YOUTH OLYMPIC FESTIVAL

# XV Avropa Gənclər Olimpiya Festivalı

B a k ı - 2 0 1 9



# Azərbaycan idmançıları Avropa Gənclər Olimpiya Festivalını 23 medalla başa vurublar



(əvvəli 5-ci səhifədə)

## Tennis

Bakı Tennis Akademiyasında keçirilən yarışlarda oğlanlar və qızlar fərdi və qoşa kateqoriyalarda mübarizə aparıblar. Yarışların ilk günündə Azərbaycanın iki idmançısı korta çıxıb. Qızların fərdi yarışlarında Polina Drobişeva slovakiyalı Salma Druqdova ilə qarşılaşıb. Təmsilçimiz bu görüşdə rəqibinə 0:2 (6:1, 6:0) hesabı ilə məğlub olaraq mübarizəni dayandırıb.

Tamerlan Əzizov isə fərdi yarışda italiyalı Daniele Miniginini sınağa çəkib. Tennisçimiz italiyalı rəqibinə 0:2 (4:6, 3:6) hesabı ilə uduzub.

Yarışların ikinci günündə oğlanlar və qızlar fərdi və qoşa kateqoriyalarda iştirak ediblər.

Azərbaycan tennisçilərindən Kənan Qasımov Alessio Basile (Belçika) ilə qarşılaşıb. Tennisçimiz 1 saat 47 dəqiqə davam edən görüşdə rəqibinə məğlub olub.

Xanım tennisçimiz Alina Hüseynova isə Jülyet Bovi (Belçika) ilə qarşılaşmadan məğlub ayrılıb.

Günün ikinci yarısında isə cütlərin yarışında təmsilçilərimiz Polina Drobiçeva və Alina Hüseynova cütlüyü 1/16 finalda Karolina Qomes və Rakel Qonzales (İspaniya) dueti ilə üz-üzə gəlib. Yığmamızın üzvləri hər iki setdə rəqiblərinə uduzublar - 2:6, 0:6.



Oğlanlardan ibarət cütlük də mübarizəni erkən dayandırıb. 1/16 finalda qüvvəsini sınayan Kənan Qasımov və Tamerlan Əzizov cütlüyü Daniel İvanov və Tyaqo Pereyra (Portuqaliya) cütlüyü ilə bacarmayıb - 1:6, 0:6.

## Atletika

XV Avropa Gənclər Olimpiya Festivalı çərçivəsində keçirilən atletika yarışlarına iyulun 22-də start verilib.

Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən yarışlarda 46 ölkədən 641 idmançı iştirak edib. Azərbaycan bu yarışlarda 18 idmançı ilə təmsil olunub.

Qızların nüvəitələmə yarışında təmsilçimiz Günel Hüseynova təsnifat mərhələsində 12,20 m nəticə ilə 20 iştirakçı arasında sonuncu olub. 800 m məsafəyə qaçış yarışında da 20 atlet mübarizə aparan Günel Manafova I mərhələdə 20-ci yeri tutub - 2 dəqiqə 42,84 saniyə.

Fəxriyyə Tağızadə isə qızların 100 m məsafəyə qaçış yarışında 12,27 saniyə nəticə ilə 20 idmançı arasında 15-ci olub.

Oğlanların 100 m məsafəyə qaçış yarışlarında çıxış edən Aleksey Ələkbərov da I mərhələdə sonuncu yeri tutub. O, start xəttinə çıxan 20 iştirakçı arasında 11,43 saniyə nəticə göstərib.

Azərbaycan atletlərindən oğlanlar arasında 400 metr məsafəyə qaçış yarışında Teymur Salahzadənin (48,48 saniyə) və qızların mübarizəsində isə uzunluğa tullanma növündə çıxış edən Ləman Hüseynovanın (5,26 metr) göstəriciləri finala yüksəlmək üçün kifayət etməyib.

Qızlar arasında 200 metr məsafəyə qaçış yarışında Lamiyə Vəliyeva (25,06 saniyə), oğlanların 200 metr məsafəyə qaçışında Əli Abdıyev (22,63 saniyə) və hündürlüyə tullanma yarışında Aydın Bədəlovun (1,79 metr) göstəriciləri uğursuz olub.

Üç təkanla tullanma yarışında azərbaycanlı atlet Sabrina Zralova isə 12,75 metr nəticə göstərərək yarışı dördüncü yerdə bitirib.

Azərbaycan atletləri oğlanların estafet yarışında Aleksey Əliəkbərov, Əli Abdıyev, İlham Nağıyev və Teymur Salahzadə, qızlar arasında estafet yarışında çıxış edən Fəxriyyə Tağızadə, Bibixanım Qəmbərova, Nika Məmmədova və Lamiyə Vəliyeva lazımı nəticəni göstərə bilmədikləri üçün mübarizəni təsnifat mərhələsində dayandırıblar.

## Həndbol

XV Avropa Gənclər Olimpiya Festivalının həndbol yarışlarında iştirak edən komandalar Bakı İdman Sarayında və "ABU Arena"da üz-üzə gəliblər. Həm qızların, həm də oğlanların, həndbol yarışlarının hər birində səkkiz komanda iki qrupda yer alıb. Qızların yarışında A qrupunda İspaniya, Fransa, Hollandiya və Rumıniya, B qrupunda Azərbaycan, Çexiya, Macarıstan və İsveçrə yığmaları mübarizə aparıblar. Oğlanların mübarizəsində isə Azərbaycan, Danimarka, Almaniya və Serbiya milliləri A qrupunda, Xorvatiya, Fransa, İslandiya və Sloveniya seçmələri isə B qrupunda yarışıblar.

Festivalın həndbol yarışları Bakı İdman Sarayında və "ABU Arena"da keçirilib.

XV Avropa Gənclər Olimpiya Festivalında A qrupunda mübarizə aparan oğlan həndbolçulardan ibarət Azərbaycan yığması ilk turda Almaniya komandası ilə üz-üzə gəlib. İlk hissəni 23:3 hesabı ilə öndə tamamlayan almaniyalılar 45:9 hesabı ilə qələbə qazanıblar.

Həndbolçularımız II turda Danimarka millisi ilə qarşılaşıblar. Danimarkalılar 32:8 (14:5) hesabı ilə qalib gəliblər.

Komandamız qrupda keçirdiyi sonuncu görüşdə də rəqibinə böyük hesabla məğlub olub. Həndbolçularımız serbiyalı həmyaşıdlarına 9:39 hesabı ilə uduzaraq qrupu sonuncu pillədə başa vurublar.

Gənc həndbolçularımız 7-8-ci yerlər uğrunda görüşdə Serbiyaya uduzublar - 14:35.

B qrupunda yer alan qızlardan ibarət hənbol komandamız isə ilk turda İsveçrəyə 16:34 hesabı ilə məğlub olub. Komandamız ikinci oyununda da uğursuzluqla üzləşib. Macarıstan millisi ilə qarşılaşan komandamız yekunda 47:23 hesabı ilə məğlub olub.

Azərbaycan həndbolçuları qrupda sonuncu görüşünü çexiyalı rəqiblərinə qarşı keçiriblər. Millimiz bu görüşdə 17:33 hesablı məğlubiyyətlə barışıb. Hər üç oyunda məğlub olan həndbolçu qızlarımız qrupda sonuncu pillədə qərarlaşıblar.

7-8-ci yerlər uğrunda görüşdə meydana çıxan Azərbaycan həndbolçuları çexiyalı rəqiblərinə uduzublar - 13:42.

## Basketbol

Oğlanların basketbol yarışı Avropa Azərbaycan Məktəbində, qızların yarışı isə "Sərhədçi" İdman Olimpiya Mərkəzində keçirilib.

Basketbol yarışlarında həm qızların, həm də oğlanların mübarizəsində səkkiz komanda iki qrupda mübarizə aparıb. Oğlanların yarışında A qrupunda Azərbaycan, Xorvatiya, Fransa, Serbiya, B qrupunda İspaniya, Yunanıstan, Türkiyə və Litva yığmaları mübarizə aparıblar. A qrupunda çıxış edən oğlan basketbolçulardan ibarət Azərbaycan yığması XV Avropa Gənclər Olimpiya Festivalında ilk oyununu "Sərhədçi Arena"da Serbiya millisinə qarşı keçirib. Balkan təmsilçiləri bu görüşdə 77:39 (19:9, 16:7, 17:12, 25:11) hesablı qələbə qazanıblar.

Komandamız ikinci oyununda Fransa basketbolçuları ilə üz-üzə gəlib. Rəqibinə qarşı ciddi müqavimət göstərən basketbolçularımız iki periodu xeyrinə bitirsələr də, yekunda məğlub olublar - 45:53 (9:16, 18:12, 5:13, 13:12).

Növbəti mərhələyə yüksəlmək şanslarını itirən basketbolçularımız qrup mərhələsində sonuncu oyununu Xorvatiya seçməsinə qarşı keçirib. Gərgin mübarizə şəraitində keçən görüş komandamızın qələbəsi ilə başa çatıb - 58:54.

Azərbaycan millisi 4 xalla ikinci, Xorvatiya yığması isə 3 xalla qrupda sonuncu yeri tutub.

Yarışda 7-8-ci yerlər uğrunda qarşılaşmada isə Azərbaycan və Xorvatiya basketbolçuları qarşılaşıblar. Basketbolçularımız 31:44 hesabı ilə geri düşdükləri oyunda əzmkarlıq göstərək 64:51 hesabı ilə qələbə qazanıblar. Azərbaycan yığma komandası yarışı 7-ci pillədə başa vurub.



## Voleybol

Avropa Gənclər Olimpiya Festivalında oğlanların voleybol yarışları Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzində, qızların mübarizəsi isə Azərbaycan Voleybol Mərkəzində keçirilib. Oğlanlar arasında voleybol yarışlarında A qrupunda Azərbaycan komandası ilə yanaşı, Almaniya, Rusiya, Belarus seçmələri qələbə uğrunda yarışıblar. B qrupunda isə mübarizə Çexiya, İtaliya, Bolqarıstan və Belçika seçmələri arasında aparılıb.

Voleybol üzrə qızların mübarizəsində A qrupunda Rusiya, Rumıniya, Bolqarıstan və Ukrayna, B qrupunda isə İtaliya, Belarus, Türkiyə və Almaniya yığmaları yer alıb.

Oğlanlardan ibarət Azərbaycan yığması mübarizə apardığı A qrupunun ilk matçında Almaniya komandası ilə qarşılaşıb. Almaniya komandası görüşdə 3:0 (31:29, 25:19, 25:22) hesabı ilə qələbə qazanıb. Komandamız ikinci turda Belarus millisi ilə qarşılaşıb. Yığmamız 63 dəqiqə davam edən qarşılaşmada 0:3 (9:25, 19:25, 16:25) hesabı ilə uduzub.

Gənc voleybolçularımız Bakı-2019-u 8-ci pillədə başa vurublar.



## Velosiped idmanı

Oğlanlar və qızlar arasında velosiped yarışlarına iyulun 23-də start verilib. 10 kilometr məsafəyə fərdi şose yürüşündə medallar uğrunda 30 ölkədən 90 idmançı mübarizə aparıb. Yarışlarda Azərbaycanı Nofəl Nuriyev, Nikita Sitov, Mustafa Muxtarlı, Lalə Əbdürəhmanova, Gülşən İsmayılova və Məleykə İsgəndərova təmsil ediblər.

Yarışın nəticələrinə görə, qızlardan Lalə Əbdürrəhmanova 65-ci, Məleykə İsgəndərova 70-ci, Gülşən İsmayılova isə 72-ci yeri tutublar. Oğlanlar arasında isə Nikita Şitov 50-ci, Mustafa Muxtarlı 68-ci, Nofəl Nuriyev isə 83-cü olub.

Oğlanlar arasında 75 km məsafəyə qrup ötüşməsində Azərbaycanı iki idmançı təmsil edib. Maksim Şitov 73-cü, Nofəl Nuriyev 74-cü yeri tutub. Hər iki velosipedçi finişə 2 saat 3 dəqiqə 5 saniyəyə çatıb.

30 ölkənin idmançılarının iştirak etdiyi yarışın qalibi adına Madis Mihkels yiyələnib. Estoniyalı velosipedçi məsafəni 1 saat 49 dəqiqə 24 saniyəyə qət edib. İqor Dario Belletta (İtaliya) ikinci, Martin Sverçek (Slovakiya) isə üçüncü yeri tutublar.

## *Üzgüçümüz Tokio Olimpiadasına lisenziya qazanıb*

Azərbaycan üzgüçüsü Maksim Şemberev Tokio-2020-ci Yay Olimpiya Oyunlarına lisenziya qazanıb. Koreya Respublikasının Quanqju şəhərində keçirilən su idman növləri üzrə dünya çempionatında M.Şemberev 400 metr məsafəyə qarışıq üsulla üzmə yarışında final mərhələsinə yüksəlib. 26 yaşlı idmançımız 194 ölkədən 2623 atletin iştirak etdiyi çempionatın həlledici mərhələsində 4 dəqiqə 14.10 saniyə nəticə ilə altıncı yeri tutub. Bu, Azərbaycanın üzgüçülük idmanının tarixində ilk və ən möhsuldar nəticə hesab olunur. Bununla da M.Şemberev 2020-ci il Tokio Yay Olimpiya Oyunlarına bir başa iştirak etmək hüququ əldə edib.



## Badmintonçumuz beynəlxalq turnirdə iştirak edib

Azərbaycan batmintonçusu Edi Reski Dviçayo Nigeriyanın paytaxtı Laqosda keçirilən beynəlxalq turnirdə çıxış edib. Edi Reski Dviçayo “International Challenge” seriyalı turnirdə mübarizəyə əsas mərhələdən başlayıb. Azərbaycan təmsilçisi onaltıdabir finalda Slovakiya idmançısı Milan Dratvanı 2:0 (21:19, 21:6) hesabı ilə məğlub edib. Səkkizdəbir finalda Kanada təmsilçisi Sankirs üzərində 2:0 (21:12, 21:17) hesablı qələbə qazanan idmançımız dörddəbir finalda turnirin bir nömrəli reytinq favoriti İsrail badmintonçusu Mişa Zilbermana 0:2 (17:21, 17:21) hesabı ilə uduzub.



Turnirin 8 ən güclü idmançısı sırasına yüksələn badmintonçumuz bu nəticə sayəsində aktivinə 2200 reytinq xalı yazdırıb.

## *Azərbaycan idmançıları Balkan çempionatında yarışacaqlar*

İyulun 31-dən avqustun 4-dək Ankarada uşu üzrə açıq Balkan çempionatı keçiriləcək. Çempionatda ölkəmizi 20 idmançı təmsil edəcək. Azərbaycan, Türkiyə, İran, Yunanıstan, İtaliya və Əlcəzair kimi güclü komandaların iştirak edəcəyi çempionatda ümumilikdə, 10 ölkənin idmançıları birincilik uğrunda mübarizə aparacaq.



## Sofiyada dünya çempionatı keçirilir

İyulun 29-da Bolqarıstanın paytaxtı Sofiyada yeniyetmə güləşçilər arasında dünya çempionatı start götürüb.

Birinci yarış günündə sərbəst güləşçilər mübarizə aparıblar.

Güləşçimiz Cavid Cavadov (48 kq) dünya çempionatına inamlı qələbə ilə başlayıb. Həmyerlimiz debütdə Rusiyadan olan rəqibinə qalib gəlib.

Dörddəbir finalda güləşçimizin rəqibi Özbəkistan idmançısı olacaq.

Zirəddin Bayramov (55 kq) ilk mərhələdə Belarus təmsilçisinə vaxtından əvvəl qalib gəlib. İtaliya idmançısından üstün olan güləşçimiz 1/4 finala yüksəlib. Ancaq qitə birinciliyinin yarımfinalında məğlub olduğu Türkiyə güləşçisinə növbəti dəfə uduzub.

Cəbrayıl Hacıyev (65 kq) ilk görüşdə türk rəqibini çətinlik çəkmədən məğlub edib. EYOF-un qalibi daha sonra iranlı rəqiblə qarşılaşmadan qalib ayrılıb. Yaponiyalı rəqibinə də qalib gələn güləşçimiz yarımfinala yüksəlib.

Digər güləşçilərimiz Fərid Cabbarov (80 kq) və Hamlet Nəsibli (110 kq) ilk görüşdə məğlub oldular.

## Veteran cüdoçularımızdan Avropa çempionatında uğurlu nəticə



İspaniyanın Las-Palmas-de-Qran-Kanariya şəhərində veteran cüdoçular arasında Avropa çempionatı keçirilib. 35 ölkədən 778 (654 kişi, 124 qadın) idmançının mübarizə apardığı yarışda Azərbaycan komandası 16 usta cüdoçu ilə təmsil olunub. Komandamız fərdi yarışlarda üç qızıl, iki gümüş və iki bürünc medal əldə edib. Usta cüdoçularımızdan Mübariz Cəfərov (M4, 81 kq), Fərhad Rəcəbli (M7, 90 kq) və Elxan Rəcəbli (M2, -100 kq) bütün rəqiblərinə qalib gələrək Avropa çempionu adına layiq görülüblər. Yarışlarda gümüş medalları komandamızın aktivinə Müşfiq Cəfərov (M5, 66 kq) və Yamən Fətiyev (M5, 100 kq) yazdırıblar. Bürünc medalları isə Babək Hacıyev (M3, 60 kq), Məmməd Məmmədov (M1, 81 kq) qazanıblar.

Beləliklə, fərdi yarışları 7 medalla başa vuran yığmamız bu nəticə ilə 7-ci yeri tutub.

Veteran idmançılarımız çempionatın son günündə komanda yarışlarında güclərini sınayıblar. 50-64 yaş arası idmançıların qrupunda mübarizə aparan veteran cüdoçularımız komanda yarışlarının bürünc medallarına sahib çıxıblar. Qeyd edək ki, idmançılarımızın yarışda iştirakı Azərbaycan Cüdo Veteranları Assosiasiyası tərəfindən təmin olunub.

### *Zaqreb sınağı başa çatdı*

Xorvatiyanın Zaqreb şəhərində keçirilən cüdo üzrə Qran-Pri yarışına yekun vurulub. Beynəlxalq turnirin son günü Azərbaycanı təmsil edən İrina Kindzerskaya bürünc medal qazanıb. Portuqaliya, Monqolustan, Ukrayna, Tunis idmançılarına qalib gələn İ.Kindzerskaya yalnız turnirin çempionu, yaponiyalı Sone Akiraya (1/2 finalda) uduzub. Qeyd edək ki, Zaqreb Qran-Prisində 86 ölkədən 552 cüdoçu mübarizə aparıb.



### *Berlində Azərbaycan finalı*

Almaniyanın paytaxtı Berlində gənc cüdoçular arasında açıq Avropa kuboku yarış keçirilib. 39 ölkədən 470 idmançının iştirak etdiyi yarışda Azərbaycan komandası 9 idmançı ilə təmsil olunub. Cüdoçularımız Berlin turnirini 2 medalla başa vurublar. 60 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Rövşən Əliyev və Əhməd Yusifov bütün rəqiblərinə qalib gələrək finala çıxıblar. Həlledici qarşılaşmada qələbə qazanan Əhməd Yusifov açıq Avropa kubokunun qalibi adına layiq görülüb. Rövşən Əliyev isə gümüş medala sahib çıxıb.

### *Cüdoçularımız Tokio-2020-yə doğru*

Paracüdo üzrə Azərbaycan komandası İtaliyanın Genuya şəhərində keçirilən Avropa çempionatında 10 medal qazanıb. Çempionatda 1 qızıl, 4 gümüş və 5 bürünc medala sahib olan komandamız medal sayına görə ikinci yerdə qərarlaşıb. Qızıl medalı ölkəmizin aktivinə qadınların yarışında 63 kiloqram çəki dərəcəsində mübarizə aparan Xanım Hüseynova yazdırıb. Sevda Vəliyeva (57 kq) və Dürsədəf Kərimova (70 kq) gümüş, Səbinə Abdullayeva (52 kq) bürünc medallara layiq görülüblər.



Kişilərin yarışında Bayram Mustafayev (66 kq) və İlham Zəkiyev (+100 kq) Avropa çempionatında yalnız finalda uduzaraq gümüş medallarla kifayətlənməli oldular. Bürünc medalları isə ölkəmizə Namiq Abbaslı (66 kq), Ramil Qasımov (73 kq), Hüseyn Rəhimli (83 kq) və Kənan Abdullaxanlı (100 kq) yazdırıblar.

İdmançılarımız bu nailiyyət sayəsində Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarında iştirak etmək şanslarını daha da möhkəmləndiriblər.

Çempionatın son günündə kişi və qadınlardan ibarət qarışıq paracüdo yarışları keçirilib. Paracüdo millimiz komanda yarışlarında bütün rəqiblərini məğlub edərək Avropanın ən güclüsü adını qazanıb.

## Vahid Nəzərov: *“Etimadı doğrultmağa çalışacağam”*

Sentyabrın 18-dən 27-nə qədər Tailandın Pattaya şəhərində ağırlıqqaldırma üzrə dünya çempionatı keçiriləcək. Sayca kişilərin 85-ci,



qadınların isə 28-ci dəfə mübarizə aparacağı çempionatda planetin ən güclü idmançıları Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xalı uğrunda qüvvələrini sınayacaqlar. Bu cür mötəbər yarışların təşkilində və idarə olunmasında təbii ki, hakimlərin rolu az deyil. Sevindirici haldır ki, Pattayada təşkil olunacaq dünya çempionatında azərbaycanlı ədalət təmsilçisi iştirak edəcək. Bələ ki, bu vaxta qədər bir neçə Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında hakim qismində təmsil olunan Vahid Nəzərov Asiyada təşkil olunacaq ağırlıqqaldırma yarışına dəvət alıb. Bu məqsədlə Vahid müəllimlə əlaqə saxlayıb, ətraflı məlumat aldıq. “Bildiyiniz kimi, gələn il bütün dünyanın diqqəti Yaponiyanın paytaxtı Tokioya yönələcək. Tarixdə ikinci dəfə “gündoğar ölkə”nin paytaxtı Yay Olimpiya Oyunlarına ev sahibliyi edəcək. 56 ildən sonra Olimpiya Oyunları yenidən Tokioya qayıdır. Yaponiyada təşkil olunacaq olimpiadada iştirak etmək üçün dünyanın ən güclü idmançıları qüvvələrini səfərbər edəcəklər. Atletlərlə yanaşı hakimlər də Tokio-2020-də iştirak etməyə çalışacaqlar. Hesab edirəm ki, həmin hakimləri arasında mən də yer alacağam. Lakin buna qədər beynəlxalq federasiya tərəfindən təşkil olunan yarışlara iştirak edib, mənə göstərilən etimadı doğrultmağa çalışacağam. Tailandda keçiriləcək dünya çempionatı mötəbər yarışlardan biri hesab olunur. Artıq bu yarışda iştirak etmək üçün mənə dəvət göndərilib. Çempionatda Münsiflər Heyətinin komissarı olmaq çox məsuliyyətli işdir. Çalışacağam ki, beynəlxalq dərəcəli hakim kimi bu məsuliyyətli işin öhdəsindən gəlim. Əsas hədəf isə Tokio-2020 Yay Olimpiya Oyunlarıdır”, - deyə Vahid Nəzərov bildirdi.



## Triatlonçumuz qitə çempionatında üçüncü oldu

Triatlon üzrə Azərbaycan millisinin üzvü Rostislav Pevtsov Kazanda keçirilən sprint üzrə Avropa çempionatında bürünc medal qazanıb.

Bu, cari mövsümdə R.Pevtsovun artıq üçüncü medalıdır. İdmançımız Pontevedra şəhərində keçirilən akvatlon üzrə dünya çempionatında qızıl medal qazanıb. Daha sonra təmsilçimiz Avropa kuboku yarışlarında ikinci olub.

Hazırda Azərbaycan təmsilçisi Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaq üçün mübarizə aparır. Bu baxımdan Kazanda sprint üzrə Avropa çempionatı müəyyən mənada 2020-ci ilin Olimpiya Oyunlarına hazırlıq olub.

Qadınların mübarizəsində isə komandamızın üzvü Kseniya Levkovskaya 6-cı olub.

## Dünya birinciliyində dörd medal

İyulun 28-də Macarıstanın paytaxtı Budapeştdə savat - Fransa boksunun asso versiyası üzrə yeniyetmə və gənclər arasında dünya birinciliyinə yekun vurulub.

Ölkəmizi Azərbaycan Savat və Şaolin Döyüş Sənətləri Federasiyasının prezidenti və böyük məşqçisi, respublikanın Əməkdar məşqçisi Rafiq Əliyevin rəhbərliyi ilə 5 idmançı təmsil edib.

Yığma komandamızın üzvü Aydın Sayadlı finalda rəqibinə məğlub olaraq gümüş medalla kifayətlənib. Digər idmançılarımız Xəyal Astanov, Ayman Mahalov və Səid İbrahimov isə dünya birinciliyində bürünc medal qazanıblar.

Qeyd edək ki, dünya birinciliyinə 2021-ci ildə Bakı ev sahibliyi edəcək.

# FUTBOL



## Cavab görüşündə maltalı hakimlər

Avropa Liqasının II təsnifat mərhələsində keçiriləcək “Neftçi” - “Arsenal” oyununun hakim təyinatları açıqlanıb. “Olimpiya dünyası” qəzeti UEFA-nın saytına istinadən xəbər verir ki, qarşılaşmanə Maltadan olan hakimlər briqadası idarə edəcək. Oyunun baş hakimi Alan Mario Sant olacaq. Ona Edvard Spiteri və Roberto Vella kömək edəcək. Dördüncü hakim funksiyasını Malkolm Spiteri yerinə yetirəcək. Qeyd edək ki, avqustun 1-də “Bakcell Arena”da keçiriləcək “Neftçi” - “Arsenal” oyunu saat 21:00-da başlayacaq.



## Püşkatma mərasiminin vaxtı dəqiqləşdi

Azərbaycan Premyer Liqasında 2019/2020-ci illər mövsümünün püşkatma mərasiminin vaxtı müəyyənləşib.

Mərasim avqustun 5-də AFFA-nın inzibati binasında keçiriləcək. Tədbir saat 15:00-da başlanacaq.

Qeyd edək ki, Topaz Premyer Liqasının yeni mövsümü 16 avqustda başlayacaq.

## *FİFA: millimiz 109-cu sırada*

FİFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb.

Ötən ayla müqayisədə Azərbaycan milli komandası bir pillə irəliləyib. Xalı 1188 qalan millimiz 109-cu sıraya qalxıb. Millimizin Avro-2020-nin seçmə mərhələsindəki rəqiblərindən Xorvatiya (1625) 7-ci (-1), Uels (1514) 24-cü (-1), Slovakiya (1491) 31-ci (0), Macarıstan isə (1442) 45-ci (-3) pillədə yer alıb.

Qeyd edək ki, siyahıya 1746 xalla Belçika başçılıq edir. Braziliya 1726 xalla ikinci, Fransa 1718 xalla üçüncüdür.

## Dünya çempionatı qışda keçiriləcək

Klublararası dünya çempionatının tarixi açıqlanıb.

Qətərdə keçiriləcək yarış dekabrın 11-də start götürəcək, dekabrın 21-də başa çatacaq.

Turnirə 7 klub qatılacaq. Artıq onlardan beşinin adı məlumdur. Bunlar “Liverpul” (İngiltərə), “Monterrey” (Meksika), “Esperans” (Tunis), “Əl-Sədd” (Qətər) və “Yeqen Sport”dur (Yeni Kaledoniya). Siyahıya Cənubi Amerikada Libertadores kubokunun və Asiya Çempionlar Liqasının qalibi də əlavə olunacaq. Qeyd edək ki, turnirin açılış oyununda “Əl Sədd”lə “Yeqen Sport” qarşılaşacaq.

## La Liqa: yalnız həftənin şənbə və bazar günləri

İspaniya La Liqasında 2019-20 mövsümü ilə bağlı yenilik tətbiq edilib. İspaniya Futbol Federasiyası çempionat oyunlarının yalnız həftənin şənbə və bazar günləri keçirilməsinə qərar verib. Cümə və bazar ertəsi oyun keçirilməsi qadağan edilib.

Yeni qərar mövsümün açılış matçına təsir edib. “Atletik”lə “Barselona” arasında avqustun 16-na təyin edilən oyun 17-nə keçirilib. Görüş Bakı vaxtı ilə 22:45-də başlayacaq.

## Patrik Klyuvert yenidən “Barselona”da

“Barselona”nın sabiq futbolçusu Patrik Klyuvert yenidən Kataloniya təmsilçisinə qayıdıb. Qol.az klubun saytına istinadən xəbər verir ki, hollandiyalı veteran hücumçu “Barselona”nın akademiyasında idman direktoru vəzifəsində çalışacaq. Onunla 2021-ci ilin yayına qədər müqavilə imzalanıb.

Qeyd edək ki, 1998-2004-cü illər aralığında “Barselona”da çıxış etmiş Klyuvert 308 oyuna 145 qol vurub.

## “Adidas”la “Bavariya”nı birləşdirən cəhət

“Bavariya” klubunda prezident dəyişikliyi gözlənilir.

“Bild” nəşrinin yaydığı xəbərə görə, Münhen təmsilçisinin hazırkı prezidenti Uli Heness vəzifəsindən ayrılır. Onun bu ilin oktyabr ayındakı seçkidə namizəd olmayacağı bildirilib.

Artıq Henessi əvəzləyəcək şəxs də məlumdur. “Bavariya”nın növbəti prezidenti “Adidas” şirkətinin İdarə Heyətinin sədri, həmçinin hazırda klubun Nəzarət Şurasında yer alan Herbert Hayner olacaq.

Qeyd edək ki, U. Heness ilk dəfə 2009-cu ildə “Bavariya”nın prezidenti seçilib. 2014-cü ildə vergidən yayındığı üçün həbs olunan futbol funksioneri vəzifəsindən məcburi kənarlaşdırılmışdı. 2 il sonra isə yenidən prezident olmuşdu. Heness ümumilikdə isə 40 ildir Münhen klubunda çalışır.

## Transfer xəbərləri

“Real”ın yarımmüdafiəçisi Daniel Sebalyos növbəti mövsümü “Arsenal”da keçirəcək. Bu barədə “topçular”ın baş məşqçisi Unai Emeri məlumat verib. 22 yaşlı futbolçu ingilis klubunda icarə əsasında çıxış edəcək. Onunla 1 illik müqavilə bağlanıb. İspaniyalı oyunçu “Arsenal”da 8 nömrəli formanı geyinəcək. Qeyd edək ki, Sebalyos 2017-ci ildən “Real”da çıxış edir.



* * *

“Fənərbaxça”nın futbolçusu Elif Elmasın “Napoli”yə keçidi rəsmiləşib. 19 yaşlı yarımmüdafiəçi ilə 5 illik müqavilə imzalanıb. “Napoli” makedoniyalı oyunçu üçün İstanbul təmsilçisinə 16 milyon avro təzminat ödəyəcək. Qeyd edək ki, E.Elmas 2017-ci ildə Şimali Makedoniyanın “Rabotniçki” klubundan 180 min avroya “Fənərbaxça”ya transfer olunmuşdu.

* * *

“Roma”dan ayrılan Daniele De Rossinin yeni klubu müəyyənləşib. 35 yaşlı yarımmüdafiəçi karyerasını “Boka Xuniors”da davam etdirəcək. Bu barədə Argentina klubunun rəsmi “Facebook” səhifəsi məlumat yayıb. Onunla yaxın günlərdə rəsmi müqavilə imzalanacaq. Qeyd edək ki, De Rossi ötən mövsümün sonu müqaviləsinin müddəti başa çatdığı İtaliya təmsilçisindən ayrılıb.

* * *

“Mançester Yunayted” heyətinə yeni futbolçu cəlb etməyə hazırlaşır. “Mankunyanlar” Latiso”nun yarımmüdafiəçisi Milinkoviç Saviçi transfer edir. Serbiya millisinin üzvü ilə razılıq əldə olunub. Onunla 5 illik müqavilə imzalanacağı bildirilir. “Mançester Yunayted” bu transfer üçün qarşı tərəfə 75 milyon avro ödəyəcəyi iddia olunur. Qeyd edək ki, Saviç ötən mövsüm A Seriyasında 31 oyuna 5 qol vurub, 3 qol ötürməsi edib.



* * *

“Beşiktaş” heyətini yeni futbolçu ilə gücləndirib. İstanbul təmsilçisi “Barselona” ilə müqaviləsi başa çatan Duqlas Pereyranı transfer edib. Braziliyalı sağ cinah müdafiəçisi ilə 3 illik müqavilə bağlanıb. Qeyd edək ki, 28 yaşlı futbolçu ötən mövsümü icarə əsasında Türkiyənin digər klubu “Sivasspor”da keçirib.

* * *

“İnter” “Barselona”da çıxış edən Arturo Vidalı heyətə cəlb etmək üçün 3 futbolçu ilə yollarını ayırmağı düşünür. Belə ki, Milan təmsilçisi Raca Nainqolan, Joau Mariu və Borxa Valero ilə müqaviləni artırmaq istəmir. İtaliya klubu futboçu ilə bağlı “Barselona” ilə danışıqlara başlamağı planlaşdırıb.

* * *

“Lill” in hücumçusu Nikola Pepenin klubu tərək edəcəyi barədə məlumatlar yayılıb. Çox güman ki, yay transfer pəncərəsi bağlanana qədər 24 yaşlı futbolçu Fransadakı karyerasını başa vuracaq. Transfer qiyməti 80 milyon olan Pepe üçün hazırda “İnter”, “Napoli” “Liverpul” və “Arsenal” klubları danışıqlara başlayıb.



* * *

“Lester”in keçmiş futbolçusu Sindzi Okazaki karyerasını İspaniyada davam etdirə bilər. Yaponiya millisinin hücumçusu “Malaqa”nı diqqət mərkəzinə düşüb. “Deportes Cope Malaga” agentliyinin yaydığı məlumata görə, artıq bu barədə tərəflər ilkin razılığa gəliblər.

* * *

Türkiyənin “Kasımpaşa” klubunda çıxış edən Mahmud Trezeqe yeni mövsümdən etibarən İngiltərədə çıxış edə bilər. 24 yaşlı yarımmüdafiəçi “Aston Villa” ilə müqaviləyə imza atacaq. Buna qədər futbolçunun viza və beynəlxalq razılıq sənədi hazırlanmalıdır.

* * *

“Totenhem”in rəhbərliyi “Yuventus”da çıxış edən Paulo Dibalanı heyətində görmək istəyir. Argentinalı futbolçunun Turini tərk etmək istəyi bu transferi daha da tezləşdirə bilər. Qeyd edək ki, İngiltərənin digər klubu “Mançester Yunayted” 25 yaşlı Dibala üçün “Yuventus”a müraciət edib.

* * *

“Liverpul”un qapıçısı Simon Minyolenin adı “Benfika” ilə hallanır. Lissabon klubu bunun üçün belçikalı qapıçını tranfer etməkdə israrlıdır. Qeyd edək ki, Lissabon klubu bundan əvvəl “Yuventus”da çıxış edən Mattias Perina ilə razılığa gəlmişdilər. Lakin futbolçu tibbi baxışdan uğurla keçmədiyi üçün Perinanın “Benfika”ya keçidi baş tutmamışdı.



* * *

İtaliyanın “Sassuolo” klubunda çıxış edən Kevin Prins Boatenqin yenidən “Ayntraxt”a qayıdışı gözlənilir. 32 yaşlı futbolçu karyerasını Almaniyada davam etdirmək fikrindədir. Ötən mövsüm icarə əsasında “Barselona”da çıxış edən 32 yaşlı yarımmüdafiəçi bunun üçün azad agent kimi “Sassuolo” klubunun rəhbərliyi ilə danışıqlar aparıb.



# Dünya-idmanı

## Novak Cokoviç Monreala getməyəcək



Dünyanın bir nömrəli raket ustası Novak Cokoviç bu ilin avqustunda Monrealda keçiriləcək "Masters" turnirində iştirak etməyəcək.

İdmançı bu barədə bildirib: "Təəssüf ki, Monrelda iştirak edə bilməyəcəm. Komandamla birlikdə bir az artıq dincəlməyi qərara aldıq".

Ehtimallara görə, Monreal turnirinin qalibi digər tanınmış tennisçi Rafael Nadal olacaq.

Novak Cokoviçdən başqa, Monreal və Sinsinnati turnirində bərpa prosesi keçən və ABŞ Açıq çempionatının (2009) qalibi Xuan Martin del Potro da iştirak etməyəcək.

## O, hazırda dünyada ən yaxşı döyüşçüdür

Kanadalı Jorj Sen-Pyer yüngül çəki dərəcəsində mütləq döyüş çempionatının (UFC) kəmərinin sahibi rusiyalı Həbib Nurmaqomedovu dünyada ən yaxşı MMA döyüşçüsü adlandırıb.



38 yaşlı kanadalı bu fikri "MMA Fighting" nəşrinə müsahibəsində söyləyib. Sen-Pyer bu ilin fevral ayında öz karyerasını bitirdiyini elan edib. Həbib ən yaxın döyüşünü sentyabrın 7-də Əbu-Dabidə amerikalı Dastin Poryeyə qarşı keçirəcək.

Sen-Pyer deyib: "Əgər mən karyeramda ən mühüm döyüş keçirmək və irs qoymaq istəsəm, indi mənim qalib gəlməli olduğum insan məhz Həbibdir. Mənim nəzərimdə o, hazırda dünyada ən yaxşı döyüşçüdür. Həbib bir dəfə də məğlub olmayıb və öz zəif cəhətlərini göstərməyib. Heç kəs ona qalib gələ bilməyib, buna görə də onunla döyüş mənim üçün çox maraqlıdır".

H.Nurmaqomedov Sen-Pyerə bu il noyabr ayında döyüş keçirməyi təklif edib. Rusiyalı döyüşçü kanadalı həmkarına təklif edib ki, qarşıdakı döyüşdə çəki dərəcəsini, həmçinin döyüşün keçiriləcəyi yer kimi Moskva, Monreal, Nyu-York və Əbu-Dabi şəhərlərindən birini özü seçsin.

Xatırladaq ki, 38 yaşlı Sen-Pyer qarışıq təknövçülükdə 28 döyüş keçirib. Bu döyüşlərin 26-da qalib gəlib (o cümlədən 14-də vaxtından əvvəl) və 2 döyüşdə məğlub olub.

## Futbolçu 16 milyon avro tələb edir



İngiltərənin "Kristal Pelas" komandasının fransalı futbolçusu Mamadu Sako dopinq-test yoxlaması ilə bağlı səhvə görə Ümumdünya Antidopinq Agentliyini (WADA) məhkəməyə verib. Britaniyada çıxan "Guardian" qəzetinin yazdığına görə, Sako ona 16 milyon avro ödənilməsini tələb edir.

2016-cı ilin aprel ayında İngiltərənin "Liverpul" komandasında oynayan Mamadu Sakonun dopinq-probunda piy yandıran preparatlar aşkar ediləndən sonra o, 30 günlüyə futboldan kənarlaşdırılıb. Nəticədə fransalı futbolçu 2016-cı il Avropa Liqasının finalında və Avropa çempionatında çıxış edə bilməyib. Sonradan Avropa Futbol Federasiyaları Assosiasiyası (UEFA) futbolçuya bəraət qazandıraraq bildirib ki, həmin maddə WADA tərəfindən qadağan edilmiş preparatlar siyahısına daxil deyil. 2017-ci ilin sentyabrında "Liverpul" fransalı futbolçunu "Kristal Pelas" komandasına satıb.

29 yaşlı futbolçunun vəkilləri iddia edirlər ki, Sako "Liverpul"dan getməsi nəticəsində əməkhaqqı şəklində 16 milyon avro ziyana düşüb. WADA isə bununla bağlı məsuliyyəti üzərinə götürmək istəmir.

## Həftəlik idman qoroskopu



***Qoç***

Bu həftə istirahət etmək fikriniz, çətin ki, baş tuta. Əksinə, yeni məşqlərə başlamaq lazımdır. Büdcənizdə artım ola bilər. Komanda yoldaşlarınızla mübahisələrdən uzaq olun.

***Buğa***

Ulduzlar idmanda çətinlik çəkdiyinizi görərək sizə güzəştə getmək fikrinə düşüb. Məşqlərə davam etməyiniz vacibdir. Qalib gəlmək ehtimalınız var.

***Əkizlər***

Əsas vaxtınızı istirahətə yönəltməyə çalışın. Hər hansı fiziki hərəkət səhhətinizə mənfi təsir göstərə bilər. Çalışın ki, bu həftə fiziki iş görməyəsiniz.

***Xərçəng***

Sizin üçün olduqca uğurlu təqvimdir. Ulduzlar həm əlverişli təkliflər alacağınızı, həm də idman uğurlarına nail olacağınızı bildirir.

***Şir***

Tərəfdaşlarınızla aranızda müəyyən mübahisələrə əhəmiyyət verməyin. Özünüzü təmkinli aparın. Deyilən hər sözə ciddi yanaşmaq lazım deyil. Yaxşı olar ki, bütün gücünüzü səhər qaçışlarına yönəldəsiniz.

***Qız***

Astraloji göstəricilər həftənin birinci yarışını müəyyən qədər gərgin tərzdə başa vuracağınızı bəyan edir. Sonrakı günlərdə isə idman uğurlarınız yüksək və xoşagəlimli olacaq.

***Tərəzi***

Maddi durumunuz o qədər də ürəkaçan olmayacaq. Narahat olmağa dəyməz və əsəblərinizi qorumağa çalışın. Bir az da idmana üstünlük verin. Həftənin sonunda sizi xoş xəbər gözləyir.

***Əqrəb***

Sizin üçün uğurlu təqvimdir. Bu həftə idman sahəsində nailiyyətləriniz çox olacaq. Yarışlardan çəkinməyin. Çünki qalib gəlmək ehtimalınız daha çoxdur.

***Oxatan***

Həftənin birinci yarısında bütün məşqlərinizi təxirə salmağınız məsləhətdir. Əks təqdirdə gözlədiyiniz uğurlardan uzaq düşəcəksiniz.

***Oğlaq***

İdmandan müvəqqəti olaraq kənar gəzin. Əsəb gərginliyi keçirə bilərsiniz. Kobudluq etməyin. Bu həftə səyahətə çıxsanız, daha yaxşı olar.

***Dolça***

Ulduzlar yalnız ciddi məşq etsəniz, uğurlara yiyələnəcəyinizdən xəbər verir. Bu səbəbdən vaxtınızı məşq zallarında keçirmək səmərəlidir.

***Balıqlar***

Yüksək səviyyəli yarışlar yolunuzu gözləyir. Bu, daha çox şahmat idman növündə reallaşacaq. Yoldaşlarınızla xırda mübahisələriniz gözlənilir. Çılğınlıqdan uzaq olun.

## Boksçu qonorardan imtina etdi

Puertorikalı boksçu Subriel Matias rinqdə həyatını dəyişən rusiyalı boksçu Maksim Dadaşevlə döyüşə görə payına düşən 75 min dollar vəsaitdən imtina edib. Xatırladaq ki, Maksim Dadaşev iyulun 23-də keçirilən qarşılaşmada beyninə qan sızdığı üçün həyatını itirib. Həkimlər onun insultdan keçindiyini deyiblər.

"Mən bu qəbzi istəmirəm. Qoy, mərhumun ailəsinə verilsin", - deyə Subriel Matias deyib.

Məlumat üçün bildirək ki, 28 yaşlı mərhum boksçunun azarkeşləri "GoFundMe" servis xidməti vasitəsilə Dadaşevin ailəsi üçün yardım toplayır. Onun 2 yaşlı oğlu qalıb.

**olimpnews.az - sizin saytınız**






("Olimpiya dünyası" qəzetinin keçirdiyi
I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.